*Taras Şevcenqo*

# VƏSIJJƏT

Vəsijjətim budur; əldyjym zaman,
Məni dəfn ediniz Uqrajnada
Bir uçsuz-buçaqsız əngin səhrada
Məzarьm olsun qoj ьssьz bir qurqan.

———

Elə basdьrьn ki, gərə biləjim
Sьldьrьm daqlarь, dyz ovalarь,
Həm çoşqun Dneprə jaqьn olajьm,
Dujajьm ondakь uqultularь.

———

Daşqьn sellər kibi dyşmən qanьnь,
Mən aqan gərdykçə jerdən qalqьrьm.
Azadlьq ver dejə bəjyk allaha
Dualar etdikçə artar vyqarьm.

———

Mən o gynə qədər, joqsa allahь
Tanьmam tanьmaq istəməm belə.
Qьrьb zənçirləri, o azadlьqь
Suvarьm nihajət dyşmən qanilə.

———

Qurulan o azad, jeni dynjada,
bəjyk ajilədə gələrək dilə,
Məni unutmajьn siz salьn jada
Xejirxah sezlərlə, həzin sezlərlə.

**Perejaslavl**

# *DƏRDIM*

Posta Uqrajnadan coqdandьr jenə,
Hec bir şej gətirmədi nədənsə mənə.
Işləmişəm dejə bəjyk bir gynah
Məni çəzalandьrьr qəzəbli allah.
Bu çəza necindir - fərqi joq mənçə,
Məni məşqul etməjir belə dyşyncə
Lakin qəlbim sevimli Uqrajnada
Nələr cəkdijini salaraq jada
Andьqça, ələmli sərgyzəştini
Gənçlijinin qəmli sərgyzəştini
Açь - açь aqlajьr, var idi dəmlər;
Mənə qyrbətdə qalmaq myjəssər oldu
Biz elə javaş - javaş bir birimizdən
Ajrьldьq təəssyflə jaşlar təkməkdən
gecə
Mən bu qoça halьnda hər gyn, hər
Anmaqdajьm dostlarь baqьnьz neçə?
Xajьr - xajьr insanlar fənalaşmadь,
Ehtimal ki, dynjadan onlarьn adь
Silindi, silinməmiş olsajdь əjər!
Hec olmazsa bir kaqьz gendərərdilər
Amansьz və uzun kədurətləmi
Cəkdijim həsrətlə, açь dərtləmi
Vətənimdən alьnan hər bir məktubun
Neçə oqunduqunu gərməmək ycyn,
Belə kimsəsiz jurdsuz bir halda daim
Sahillər bojunça dolaşmaqdajьm.
Azad dyşyncəmlə qanat acaraq
Doqma Uqrajnaja qalqьb ucaraq
Nəqmələr oqurum, dinlər insanlar
Bu nəqmə onlara nəş'ələr sacar
Bu nəqmə varlьqь tərənnym elər
Dərdim sahil bojunça pьrьldar, əsər.

**QOS - ARAL.**

# Sajьram gynləri 1)

Sajьram gynləri, aqşamlarь mən.
Saj-hesab сьqmadadьr fikrimdən
Bu əsarətdə qьrьlmьş qəlbim
Nə bəlalər cəkəçək, ej rəbbim
Iləri etmədə illər tə'qib
Bir jerə xejri, şəri çəm eləjib
Səs-səmirsiz daşьjьrlar onlar
Dutmajьrlar dəxi bir jerdə qərar
Və uzaqlьqlarь məskən edərək
Aqьr həp həpsi nəzərdən itərək
Boş jerə etmə dua sən bu qədər!
Cynky etsən də qajьtmaz onlar.

——O——

Onlarьn hər biri otlaqlarda,
Quru jerlərdə, bataqlьqlarda,
Yc il aqmьş bir uzun matəmlə
Daxmamьzdan nə kecirmişsən elə.
Gizli ymmanlara ithaf etmiş
Onlarь indi dəniz gizlətmiş.
Dəjil ançaq gərynən devlətimi
Əmrymy, dərdimi, ylvijjətimi
Bir gərynməz qələm hər gyn qədərin
Gizli tarixinə daxil eləjir
Bu gediş qəlbimi gizlinçə jejir
Indi dyz dərt il olar mən daim
Iztirablarla xarab olmadajьm.
Mən bu dərdyncy olan dəftərimi
Bitirib dəftərə cəkdiklərimi,
Bu əsarətdə gəzymdən təkylən
Qanlь jaşlarla jazьb сьzdьm mən.
Cəkdijim qəmləri mən hicrətdə
Həp tərənnym elədim qyrbətdə
Dejə bilməm bunu səzlərlə fəqət,
Burda insan belə azdьr, xəlvət
Bir myhitdir ki, bulunmaz insan.
Rəbbi hətta arasan tapmazsan.
Hər tərəf lal və saqьr bir səhra,
Bir nəfər joq danьşьm mən hətta
Jaşamaq istəjir insan ançaq
Olmaz aləmdə kədərsiz jaşamaq
Pəs nicin bəjlə həjatьm syrynyr?
Bu fikirlə jaşamam aləmdə
Qorqmadan mən ələram əlsəm də..
Joq.. mənim hər sitəmə, hər kədərə
Sajsьz işkənçələrə, qyssələrə,
Bu dəmir qandala baqlanmaqьma,
Qatь əllərlə baqazlanmaqьma,
Varsa bir ymdə səbəb iştə budur
Doqduqum jurda dənyş arzьsьdьr.

——O——

Bəlkə mən ejləjərək razy-nijaz
O jaşьllьqla, palьtlьqla bir az
Gəzlərimdən sacьlan qətrələri
Bələrim hyznlə gəldikçə jeri.

——O——

Mənim Uqrajnada joq bir kimsəm,
Mənə onlar daha jaddьr dersəm
Olamaz zərrəçə fikrimdə xəta,
Bu Dnepirdə gəzib-tək təhna
O sevinçlərlə daşan kəntlərdə
Dolaşьb mən də olan hər dərdə—
Qəmli səzlərlə nihajət verərim
Fikrimi əjlə tərənnym edərim.
Dəjynyb сьrpьnьr həp baq, qəlbim
Məni bir az da jaşat ej rəbbim
Gərəjim bəlkə o mə'valarь mən.
O mezarlьqlarь, səhralarь mən.
Mənə artьq jaşamaq ixtijarь
Verməjirsənsə əjər ej tanrь,
Bari gəz jaşlarьmь ver oraja
Onun uqrunda bilirsən, allah
Mən bu qyrbətdə nə qəmlər cəkdim
Nə bəlalər, nə sitəmlər cəkdim?!
Doqduqum sevgili dyzlərdə əjər
Məni bir dəf'ədə jad ejləsələr.
Bu əsarətdə mənimcin jatmaq.
Dinlə ej tanrь rahatlьq olaçaaq.
Bunu jap, jaxud amandьr rəbbim.
Bir umud ver də sevinsin qəlbim.
Mən ki, hec bir şejə qadir dejilim.
Bu əsarətdə bu qyrbətdə əlim,
Catmaz hec bir şejə əlsəm də belə.
Məni anmaz bir adam qəlbilə.
Mən əlyrsəm ələçək dujqularьm.
Topraqa dəfn olaçaq arzьlarьm.
Doqma jurdum, mən əlyrsəm ançaq
Bu əlymdən ki, xəbər dutmajaçaq
Bəlkə illər kecəçəkdir, tanrьm.
Açь jaşlarda yzən dujqularьm
Doqma jurdumda nihajət jetişər
Jerə şəbnəm kibi bir ləhzə dyşər
Çanlь bir qəlbi jujarlar sonra
Təkylən qəmli həzin jaşlarla
O jazьq qəlblə həsrət cəkərik
Aqlarьq, sel kibi jaşlar təkərik
Ah, o, minnətzədə qəlb bəlkə də hər,
Dua ystyndə mənim adnь cəkər.
Nə olur, olsa asьlmaq da əgər,
Qələmim işləjəçək şamy-səhər.

**ORENBURQ 1850.**

1) Şeirləri M. Myşfyq və Ə. Çavad tərçymə etmişdi[r]